*Azərbaycan dili və ədəbiyyat tədrisi*
2025 / Cild 71, Say 1 / 126–131
https://doi.org/10.48445/x7649-8433-4913-s

# Azərbaycan dili fonetikasının tədrisinin ümumi metodik prinsipləri

***Leyla Nəcəfova*** [1]

**XÜLASƏ**
*Məlum olduğu kimi, ədəbi dil normallaşdırılmış dil olduğundan, onun həm yazılı, həm də şifahi növlərində müəyyən qaydalardan, normalardan istifadə olunur. Orfoqrafiya dilin istər saflığı, istərsə də inkişafı üçün əvəzolunmaz bir vasitədir. Dilimizin tarixinə nəzər saldıqda məlum olur ki, orfoqrafiya müxtəlif səbəblərdən dəfələrlə dəyişikliyə məruz qalmış, əsaslı təkmilləşmə prosesi keçmişdir. Tarix boyunca xalqımız müəyyən dövrlərdə ərəb, rus və latın əlifbalarından istifadə etmişdir. Təbii ki, qəbul edilmiş vahid və düzgün orfoqrafiya qaydaları yazının imkanlarını artırmaqla yanaşı, həm də onu sabitləşdirir və beləliklə, yazı və ədəbi dil inkişaf edir. Qeyd etməliyik ki, fonetikanın tədrisində başlıca məqsəd düzgün yazı qaydalarına söykənən savadlı yazını təmin etmək və bununla yanaşı, ədəbi tələffüz normalarına tabe olan nitq inkişafına nail olmaqdır. Azərbaycan dili müəllimləri orfoqrafiya və orfoepiya təlimində öyrədilməsi vacib olan məsələləri müasir təlim metodları vasitəsilə şagirdlərə təqdim edərək, onların marağını cəlb etməklə yanaşı, əldə etdikləri biliklərin şüurlu şəkildə mənimsənilməsinə şərait yaradırlar.*

**AÇAR SÖZLƏR**
*ədəbi dil, orfoqrafik qayda, fonetik prinsip, ədəbi tələffüz, morfoloji prinsip, tarixi-ənənəvi prinsip, orfoqrafiya və orfoepiya təlimi, nitq inkişafı, dərketmə prosesi*

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 12.11.2024
Qəbul edilib: 01.03.2025

[1] Magistrant, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0009-0007-2414-0664 | leylanecefova02@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teaching of Azerbaijani Language And Literature*
2025 / Volume 71, Issue 1 / 126–131
https://doi.org/10.48445/x7649-8433-4913-s

# General Methodological Principles of Teaching Phonetics of the Azerbaijani Language

***Leyla Najafova*** [1]

**ABSTRACT**
*As it is known, since the literary language is a normalized language, certain rules and norms are used in both its written and oral forms, spelling is an indispensable tool for the purity and development of the language. Looking at the history of our language, it becomes clear that the spelling has been changed many times for various reasons. From this point of view, our spelling has undergone a fundamental improvement process. At certain times, our people used Arabic, Russian and Latin alphabets. Of course, accepted uniform and correct spelling rules not only increase the possibilities of writing, but also stabilize it, and thus writing and literary language develop. It should be noted that the main goal of teaching phonetics is to ensure literate writing based on correct writing rules and, at the same time, to achieve speech development that follows literary pronunciation norms. Azerbaijani language teachers present to the students the issues that are important to be taught in the teaching of spelling and orthography through modern teaching methods, attracting their interest and creating conditions for the conscious assimilation of the acquired knowledge.*

**KEYWORDS**
*literary language, orthographic rule, phonetic principle, literary pronunciation, morphological principle, historical-traditional principle, teaching of spelling and orthography, speech development, comprehension process*

**ARTICLE HISTORY**
Received: 12.11.2024
Accepted: 01.03.2025

[1] Master student, Azerbaijan State Pedagogical University. Azerbaijan.
https://orcid.org/0009-0007-2414-0664 | leylanecefova02@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

## Giriş

Məlum olduğu kimi, ədəbi dil normalaşdırılmış dil olduğundan, onun həm yazılı, həm də şifahi növlərində müəyyən qaydalara və normalara riayət olunur. Ədəbi dilin yazılı forması üçün tətbiq olunan orfoqrafik qaydaların məcmusuna *orfoqrafiya* deyilir. Orfoqrafiya dilin istər saflığı, istərsə də inkişafı üçün əvəzolunmaz bir vasitədir.

Azərbaycan dilinin orfoqrafiyası özünəməxsus tarixə malikdir. Dilimizin tarixinə nəzər saldıqda, orfoqrafiyanın müxtəlif səbəblərdən dəfələrlə dəyişikliklərə uğradığı və bu proses nəticəsində əsaslı təkmilləşmə yolu keçdiyi açıq şəkildə görünür. Müəyyən dövrlərdə Azərbaycan əlifbasında ərəb, rus və latın əlifbaları tətbiq olunmuşdur ki, bu da sözlərin yazılışında əhəmiyyətli dəyişikliklərə gətirib çıxarmışdır.

Ərəb əlifbası Azərbaycan orfoqrafiyası üçün olduqca ağır olduğundan, yazı prosesini çətinləşdirirdi. Eyni zamanda ərəb əlifbasının istifadəsi zamanı yazıda sabit qayda və qanunların olmaması xalqın inkişafına maneə törətməklə yanaşı, oxu və yazı prosesinin də kifayət qədər qarışıq olmasına səbəb olurdu.

Orfoqrafiyanın qaydaya salınması istiqamətində fəal çalışanlardan biri, mütəfəkkir alim və görkəmli sənətkar Mirzə Fətəli Axundov olmuşdur. Onun bu sahədəki ən önəmli xidməti, şübhəsiz ki, yazıda fonetik prinsipi irəli sürməsi və bu prinsipi həm nəzəri, həm də əməli surətdə əsaslandırması olmuşdur.

Azərbaycan dilinin orfoqrafiyasının əsasları ilə bağlı dəyərli fikirlər irəli sürənlərdən biri də Mahmud bəy Mahmudbəyov olmuşdur. Belə ki, XX əsrin 20-ci illərində orfoqrafiya problemləri dövlət və ümumxalq məsələlər səviyyəsinə qədər yüksəlmişdir. 1922-ci ildən etibarən orfoqrafiya ilə bağlı genişmiqyaslı işlər həyata keçirilmiş, hazırlanan tezis və layihələr xüsusi orfoqrafiya konfranslarında müzakirə olunmuşdur. Azərbaycan dilinin orfoqrafiyasının inkişaf tarixinə nəzər saldığımız zaman bir daha aydın olur ki, yazımız üçün yaradılan qaydalar müxtəlif illərdə müzakirə edilərək tədricən daha da təkmilləşdirilmişdir.

“1929, 1940, 1960-cı illərdə “Azərbaycan dilinin orfoqrafiya lüğəti” nəşr olunur. 1975-ci ildə nəşr olunan lüğətdə isə artıq 58.000 söz yer alır. Sonrakı lüğətlərdə də çox sözlərə yer verilir. 1975-ci ildən sonra 2004 (80.000 söz), 2012 (98.000 söz), 2013 (110.563 söz), 2021-ci (90.000 söz) illərdə də “Azərbaycan dilinin orfoqrafiya lüğəti” nəşr olunmuşdur” [1, s. 70].

## Əsas hissə

Yazılı ədəbi dilin təkmilləşməsində orfoqrafiyanın rolu xüsusi əhəmiyyət kəsb edir. Təbii ki, ümumxalq tərəfindən qəbul edilmiş vahid və düzgün orfoqrafiya qaydaları

yazının imkanlarını artırmaqla yanaşı, onu sabitləşdirir və beləliklə, yazı və ədəbi dil inkişaf edir.

"Orfoqrafiya qaydalarının tərtib olunması müəyyən prinsiplərə əsaslanır. Hər dildə orfoqrafik qaydaların müəyyən edilməsi üçün müəyyən prinsiplərdən istifadə olunur. Lakin müxtəlif dillərdə orfoqrafiyanın bütün prinsiplərindən deyil, hər bir dilin xüsusiyyətinə uyğun olan prinsiplərindən istifadə edilir.

Professor Afad Qurbanovun fikirlərinə istinadən deyə bilərik ki, müasir Azərbaycan dilinin orfoqrafiyasında üç prinsip əsas götürülür: fonetik prinsip, morfoloji prinsip, ənənəvi prinsip" [2, s. 168].

Qeyd etməliyik ki, Azərbaycan dili orfoqrafiyası üçün əsas prinsip *fonetik prinsip* hesab olunur. Dilimizdəki sözlərin böyük əksəriyyəti bu prinsipə uyğun olaraq, yəni tələffüz edildiyi kimi yazılır.

Fonetik prinsip, hər bir sözün müasir ədəbi tələffüz əsasında yazılmasını tələb edir. Bu prinsipin əsas meyarı sözlərin düzgün tələffüzüdür. Daha dəqiq desək, sözün deyildiyi kimi yazılmasıdır. Məsələn:

| **Deyilir** | **Yazılır** |
|---|---|
| [ana] | ana |
| [qırmızı] | qırmızı |
| [beş] | beş |

Orfoqrafiyanın digər prinsipi *morfoloji prinsip* adlanır. Bu prinsip sözün mənalı hissələrinə əsaslanaraq müxtəlif şəkildə tələffüz edilən morfemlərin eyni formada yazılmasını tələb edir. Bu prinsipə əsasən, dilin xüsusiyyətləri nəzərə alınaraq müxtəlif formada tələffüz olunan kök və şəkilçilər deyildiyi kimi deyil, vahid qaydada yazılır. Məsələn:

| **Deyilir** | **Yazılır** |
|---|---|
| degil | deyil |
| dəyil | |
| döyül | |
| dögül | |

"Orfoqrafiyanın prinsiplərindən biri də *tarixi-ənənəvi prinsipdir*. Bu prinsip sözün tələffüzünü deyil, tarixi formasını əsas tutur. Qeyd etməliyik ki, başqa dillərdən keçən bir sıra sözlərin orfoqrafiyasında bu prinsip əsas götürülmüşdür. Əlbəttə ki, bu, bütün alınma sözlərə şamil edilmir. Bir sıra sözlər vardır ki, onlar mənşəyindən fərqləndirilmir. Məsələn, dilimizə rus dilindən keçən "samovar", "kolxoz" və s. kimi sözləri nümunə göstərə bilərik" [3, s. 56].

Zənnimizcə, sözlərin yazılışında istifadə edilən prinsiplərin əhəmiyyətini Azərbaycan dili müəllimləri dərindən dərk etməli, eyni zamanda sözlərin yazılış formalarının səbəblərini müəyyənləşdirməli və orfoqrafiya təlimində bunlardan istifadə etməlidirlər. Əks halda, Azərbaycan dili dərslərində orfoqrafiya təlimini ardıcıl və düzgün formada tədris etmək mümkün olmayacaqdır.

Qeyd etməliyik ki, orta məktəbdə Azərbaycan dili dərslərinin başlıca vəzifəsi düzgün yazı qaydalarına əsaslanan savadlı yazını təmin etmək və bununla yanaşı, ədəbi tələffüz normalarına tabe olan nitq inkişafına nail olmaqdır. Bu yolda Azərbaycan dili müəllimləri orfoqrafiya və orfoepiya təlimində öyrədilməli olan məsələləri müasir təlim metodları ilə şagirdlərə təqdim etməli, onlarda maraq yaratmaqla yanaşı, əldə etdikləri biliklərin şüurlu şəkildə mənimsənilməsinə şərait yaratmalıdırlar.

Hələ ötən əsrin 70-ci illərində A. Abdullayev yazırdı: “Son vaxtlarda bəzi metodist müəllimlər dərs zamanı dərketmə prosesi məsələsinə birtərəfli yanaşaraq belə bir fikir irəli sürürlər ki, guya müəllim bütün siniflərdə və dərslərdə tədris olunan fənlərin fakt və həqiqətlərini “şagirdlərin öz danışığı və dili ilə” üzə çıxarmağa çalışmalıdır. Müəllimin nitqi isə guya şagirdlərin fəaliyyətini “zəiflədir”, “sarsıdır”, dərsdə darıxdırıcı vəziyyət yaradır və buna görə də müəllimin nitqi ibtidai siniflərdə bir tədris üsulu, tərzi kimi ləğv olunmalı, orta və yuxarı siniflərdə isə xeyli azaldılmalıdır” [5, s. 54].

A. Abdullayev bəzi metodistlərin fikrinə qarşı çıxaraq, bu cür yanaşmanı müəllimin nitqinin əhəmiyyətini və rolunu azaltmaq kimi qiymətləndirir. Fikrimizcə, müasir təlimin tələblərinə görə, müəllimin nitqi yol göstərən olmalı, kitabda təqdim edilən qaydaları şagirdlərə daha fərqli üsullarla çatdırmağı bacarmalıdır.

Bu bölmədə tədris edilən məsələlərə və onların şagirdlərə mənimsədilməsinin metod və üsullarına nəzər yetirək.

Bildiyimiz kimi, müasir Azərbaycan dilində bütün şəkilçilər eyni formada yazılmır. Bəzi şəkilçilər birləşdiyi sözün sonuncu hecası ilə ahəngləşir, bəziləri isə bu qaydaya tabe olmur. Bu baxımdan, şəkilçilər üç cür yazılır.

1. **Bir cür yazılan şəkilçilər:**
   - *-dar* şəkilçisi: evdar, əməkdar və s.
   - *-kar* şəkilçisi: təmizkar, sənətkar və s.
   - *-vi* şəkilçisi: tərbiyəvi, ailəvi, kütləvi və s.
2. **İki cür yazılan şəkilçilər:**
   - *-lar, -lər* şəkilçisi: küçələr, almalar, quşlar və s.

- *-ca, -cə* şəkilçisi: körpəcə, balaca və s.
- *-sa, -sə* şəkilçisi: gülsə, oxusa, yazsa, bilsə və s.

3. **Dörd cür yazılan şəkilçilər:**
   - **-***lıq, -lik, -luq, -lük* şəkilçisi: otluq, önlük və s.
   - *-lı, -li, -lu, -lü* şəkilçisi: alovlu, sözlü, başlı və s." [4, s. 172].

**Nəticə**

Müasir təlimdə şagird bərabərhüquqlu subyektə, başlıca simaya çevrilir və məsələləri müstəqil "kəşflər", tədqiqatlar vasitəsilə həll edir. Müəllim isə bu yolda bələdçi rolunu oynayaraq, şagirdlərin hansı mərhələdə, hansı dayanacaqda və necə düşəcəklərinə nəzarət edir.

Fikrimizcə, şəkilçilərin yazılış forması mövzusu tədris olunarkən, *müəllimin şərhi üsulundan* istifadə edilməsi məqsədəuyğun olardı. Bildiyimiz kimi, bugünkü təlimdə müəllimin natiqliyindən və ya onun müxtəlif mətnləri poetik şəkildə ifa etməsindən söhbət getmir. Müəllim tədris olunan mövzunun şablon ötürücüsü yox, şərhedicisi, təhliledicisidir. O bu üsulu seçməklə, şagirdləri düşünməyə vadar edəcək və onu əzbərləmək əvəzinə, şagirdlərin hər birində şəkilçilərin formalarını yadda saxlamaq üçün fikir formalaşdıracaqdır.

**Ədəbiyyat**

1. Abdullayev, A. (1978). *Orta məktəbdə Azərbaycan dilinin tədrisinin metodikası.* Maarif.
2. *Azərbaycan dili* (V sinif üçün dərslik). (2012). Altun Kitab.
3. Həsənov, M. (1992). *Azərbaycan dili orfoqrafiyasının tədrisi*. Maarif.
4. Kazımov, Q. (2010). *Müasir Azərbaycan dili* (Morfologiya). Elm və təhsil.
5. Qurbanov, A. (2003). *Müasir Azərbaycan ədəbi dili* (I cild). Nurlan.